# Multikulturalizm Mərkəzi beynəlxalq əməkdaşlığını genişləndirir

**Venesiya Film Festivalı çərçivəsində keçirilən "Birləşdirən bağlar: Anlaşmaya və insan qardaşlığına səyahət" mövzusunda forumda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) ilə Birləşmiş Ərəb Əmirliklərində fəaliyyət göstərən İnsan Qardaşlığı Ali Komitəsi arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.**



AZƏRTAC xəbər verir ki, sənədin məqsədi tolerantlıq, qarşılıqlı hörmət və insan qardaşlığı prinsiplərinin təşviqi, tərəflər arasında əməkdaşlığın gücləndirilməsi, həmçinin regional və qlobal miqyasda birgə layihələrin həyata keçirilməsidir.

Memoranduma əsasən, tərəflər informasiya və nəşrlərin mübadiləsini aparacaq, gənclərin təşəbbüslərinin dəstəklənməsi, mədəniyyətlərarası mübadilə proqramlarının hazırlanması və potensialın artırılmasına dair təlimlərin təşkili istiqamətində əməkdaşlıq edəcəklər. Bundan başqa, birgə beynəlxalq konfranslar, seminarlar və maarifləndirici kampaniyalar keçirəcəklər.

İki il müddətinə imzalanan memorandum həmçinin Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin akademik şəbəkəsi vasitəsilə insan qardaşlığına dair tədqiqatların təşviqini və nəticələrin monitorinq mexanizmlərinin hazırlanmasını nəzərdə tutur. Anlaşma Memorandumu xalqlar arasında dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmlənməsinə, qarşılıqlı etimad və anlaşma mühitinin gücləndirilməsinə xidmət edəcək. Bu əməkdaşlıq həmçinin müxtəlif mədəniyyət və dinlər arasında dialoqun dərinləşməsinə, tolerantlıq ənənələrinin daha geniş yayılmasına, gənclərin sülh və birgəyaşayış dəyərlərinə bağlılığının artırılmasına mühüm töhfə verəcək.

Sənədin icrası təkcə iki tərəf arasında deyil, həm də regional və qlobal miqyasda humanist prinsiplərin təşviqinə, multikultural dəyərlərin qorunmasına, sülh və sabitliyin möhkəmləndirilməsinə yeni imkanlar açacaq.

Qeyd edək ki, İnsan Qardaşlığının Ali Komitəsinin məqsədi, bəşəriyyətin rifahı naminə mədəniyyətlər və dinlər arasında körpülər qurmaq, qarşılıqlı anlaşma və əməkdaşlığı gücləndirməkdir.

Azərbaycan. - 2025.- 31 avqust (№184).- S.7.